# İdeoloji təhlükələrə qarşı effektiv mübarizə başlayır

## Xarici müdaxilələr və hibrid təhdidlər özündə nəyi ehtiva edir?

### Deputat şərh edir



**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəferimizdən və ötən il suverenliyimizin tam bərpa edilməsindən sonra regiondakı geosiyasi konfiqurasiya tamamilə dəyişmiş, yeni forma almışdır.**



Dövlətimizin başçısı 2024-cü il iyulun 21-də II Şuşa Qlobal Media Forumundakı "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda çıxışında və sentyabrın 23-də VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında bir çox mövzulara toxunaraq, Azərbaycanın şanlı qələbəsindən sonra dövlətimizin üzləşdiyi real və potensial təhdidlər barədə də ətraflı danışmışdır. "Bizim Qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur - bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur" - deyən Azərbaycan Prezidenti dövlətimizin hər bir fərdinin qarşısında duran əsas vəzifələrdən birinə toxunmuşdur.

Azərbaycan Milli Məclisi ölkəmizin inkişafı və təhlükəsizliyi naminə Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və müdrik siyasətinə, onun yorulmaz fəaliyyətinə daim dəstək vermişdir. Bu dəstəyin davamı olaraq və dövlətin müxtəlif təhlükələrdən etibarlı qorunması baxımından, 2024-cü il sentyabrın 30-da, payız sessiyasının elə ilk iclasında Milli Məclis VII çağırışın səlahiyyət müddəti ərzində fəaliyyət göstərəcək Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın yaradılması haqqında qərar qəbul etmişdir.

Adıçəkilən komissiyanın gələcək fəaliyyətinə keçməzdən öncə, xarici müdaxilə və hibrid təhdidlərin təsir etdiyi sahələrə və son məqsədlərinə diqqət yetirmək vacibdir.

Şəxsi fikrim ondan ibarətdir ki, Ermənistan və havadarlarının, erməni lobbisi və onlar qədər bizi sevməyən bəzi qüvvələrin Azərbaycanda müdaxilə etmək istədikləri sahələr əsasən - dövlətin təhlükəsizliyi, iqtisadi müstəqilliyi, milli-mənəvi, dini və multikultural dəyərləri, ölkənin beynəlxalq imici və qanunlarıdır.

Dezinformasiya və informasiya əməliyyatları, kiberhücumlar, casusluq, seçkilərə müdaxilə, iqtisadi alətlərlə təsir və təzyiqetmə, kritik infrastrukturun sabotajı, zərərli ideologiyaların yayılması, dini pərdəsi altında aparılan fəaliyyətlər, qeyri-qanuni hərbi birləşmələrin yaradılması, hüquqi vasitələrdən "silah" kimi istifadə, qanunsuz miqrasiya və əqli mülkiyyətin oğurlanması hibrid təhdidlərə şamil edilə bilər.

Hibrid təhdidin növləri kimi, onlardan qorunmağın da özünəməxsus yolları var. Hər bir ölkədə bu təhlükələr fərqli şəkildə tətbiq edilə bilir. Həmçinin hibrid təhdidlərin mürəkkəbliyi onlara qarşı mübarizəni çətinləşdirir, çünki bu, hərbi, kəşfiyyat, diplomatik və informasiya əməliyyatlarını birləşdirən hərtərəfli bir cavab tələb edir. Rəqib və ya düşmən ölkə strateji məqsədinə çatmaq üçün hədəf ölkəyə uyğun hibrid təhdid növlərindən birini və ya çox zaman bir neçəsini seçərək, mütəşəkkil fəaliyyətlər aparır. Bu təhlükələr dövlətlər və dövlətə bağlı olmayan qruplar tərəfindən yaradıldığı zaman hibrid təhdid kimi dəyərləndirilir.

Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycana qarşı hibrid təhdidlərin əsasən media kampaniyası, dezinformasiya və saxta məlumatlar yaymaq kimi formalarından istifadə edilir. Lakin şübhə yoxdur ki, fürsət düşdükcə və qarşıdan gələn mötəbər beynəlxalq tədbirlərin fonunda ölkəmizlə bağlı bu təhdidlərin digər təhlükəli növlərindən də istifadəyə cəhdlər ediləcək, bu istiqamətdə müxtəlif araşdırma və beyin mərkəzlərində simulyasiyalar aparılacaqdır.

Hibrid təhdidlər cəmiyyətə bütün səviyyələrdə təsir etdiyi üçün düşmənlərimiz durmadan insanlarımızın düşüncələrinə müdaxilə etmək, milli və iqtisadi təhlükəsizliyimizə risklər yaratmaq məqsədilə müxtəlif vasitələrdən istifadə edəcəklər. Yalanı doğru kimi təqdim etməklə, saxta hekayələr yaymaqla ictimai rəyi çaşdırmağa, cəmiyyətdəki mövcud vəhdəti sarsıtmağa və qütbləşmə yaratmağa hesablanan bu hərəkətlərdən vətəndaşlarımız vaxtında agah olmalıdırlar. Koordinasiya edilmiş fəaliyyətlər aparılarkən bir çox qarışıq alətlərdən istifadə olunduğu üçün fərdi şəkildə baş verən hansısa hadisənin geniş bir kampaniyanın tərkib hissəsi olduğunu müəyyən etmək və ona vaxtında cavab vermək çox zaman asan olmur. Bunları nəzərə alaraq, biz qalib xalq olaraq qarşımızda duran bütün təhdid və çağırışlara hazır olmalıyıq.

Yeni yaradılan Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya ilə bağlı qeyd etmək lazımdır ki, bu, Azərbaycan Milli Məclisinin tarixində bir ilkdir. Coğrafiyamızda yerləşən ölkələrin heç birinin qanunvericilik hakimiyyəti orqanında konkret bu sahə ilə məşğul olan qurum yoxdur. Komissiyanın tərkibi 9 deputatdan təşkil olunub. Milli Məclisin qərarı ilə komissiyanın aşağıdakı formada geniş vəzifə və səlahiyyətləri müəyyən edilib:

- *Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin tapşırığı ilə xarici müdaxilələr və hibrid təhdidlər ilə bağlı hallara dair hesabatların hazırlanması;*
- *xarici müdaxilələr və hibrid təhdidlər ilə bağlı önləyici addımlara dair təkliflərin hazırlanması;*
- *Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin tapşırığı ilə xarici müdaxilələr və hibrid təhdidlər barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə bəyanatların verilməsi;*
- *Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin tapşırığı ilə zəruri hallarda müvafiq istiqamətlər üzrə ictimai dinləmələrin keçirilməsi;*
- *aidiyyəti icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları ilə əməkdaşlıq əlaqələrinin qurulması;*
- *qanunvericiliyin xarici müdaxilələr və hibrid təhdidlər baxımından araşdırılması, təhlil edilməsi və bununla bağlı Azərbaycan Respublikasının Milli Məclisinə təkliflərin verilməsi;*
- *Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin tapşırığı ilə zəruri hallarda komitələrin qanun layihələrinə dair müvafiq müzakirələrində iştirak edilməsi;*
- *hibrid təhdidlər üzrə beynəlxalq əməkdaşlıqda iştirak edilməsi, Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq parlament təşkilatlarında nümayəndələri ilə əlaqələndirilmiş fəaliyyət göstərilməsi.*

Sonda onu qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Milli Məclisi öz səlahiyyətləri çərçivəsində dövlətimizin təhlükəsizliyinə, inkişafına, qüdrətinə, xalqımızın birliyinə, milli-mənəvi dəyərlərimizə və digər vacib sahələrə təhdid yaradan və ya yarada biləcək bütün təhlükələri dəf etmək üçün bundan sonra da bütün gücünü səfərbər edəcək, həm icraedici, həm də məhkəmə hakimiyyəti ilə əlaqələndirilmiş şəkildə fəaliyyət göstərəcəkdir.

**Ramid NAMAZOV,**
***Milli Məclisin deputatı, parlamentin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının sədri***